Qax geniş turizm mərkəzinə çevriləcək

Bu yaxınlarda yeni istifadəyə verilən Bakı Biznes Mərkəzində keçirilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr edilən konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin geniş məzmunlu nitqi respublikamızın bütün bölgələrində sahibkarlığın inkişafına sözün həqiqi mənasında təkan verib, bu sahənin canlanmasına səbəb olub. Konfransdan sonra Qaxda da sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması istiqamətində görülən işyeni iş yerlərinin açılması istiqamətində görülən işlər geniş təhlil edildi, qarşıda duran vəzifələr müzakirə olundu.

Rayon icra hakimiyyəti tərəfindən araşdırılarkən məlum oldu ki, Qaxda Dövlət Proqramının icrası ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilsə də, bu sahədə hələ mövcud imkanlardan səmərəli istifadə edilmir. Xüsusilə, turizmin inkişafı üçün rayonda böyük potensial imkanlar mövcuddur. Əsrərəngiz gözəlliyə malik zəngin təbiət, səfalı bulaqlar, tarixi keçmişimizdən xəbər verən maraqlı abidələr, milli-mənəvi dəyərlərimizi yaşadan yerli əhali burada turizmin inkişafı üçün böyük zəmin yaradır. Təsadüfi deyildir ki, dövlətimizin başçısı İlham Əliyev Qaxa səfəri zamanı demişdir: "Mən dünyanı görmüşəm, çox ölkələrdə olmuşam. Çox nadir hallarda belə gözəl təbiət, təbii iqlim, hava, yeni turizmin inkişafı üçün lazım olan bütün şərait vardır."

Düzdür, Prezidentimizin səfərindən sonra rayonda turizmin inkişafı üçün az iş görülməyib. Lakin yuxarıda qeyd etdiyimiz kimi bu sahənin inkişafı üçün daha böyük imkanlar vardır.

Bunu nəzərə alan Qax Rayon İcra Hakimiyyətinin rəhbərliyi yerlərdə olaraq muvafiq sahədə görülən işləri təhlil etməklə sahibkarlara əməli köməklik göstərməyi qərara alıb. Rayon icra hakimiyyətinin başçısı Telman Quliyev bu günlərdə rayonun bir sıra idarə, müəssisə rəhbərləri ilə birlikdə böyük turizm imkanlarına malik olan Qaşqaçay kəndində bu sahədə görülən işlərlə tanış olub. Başçıya bildirilib ki, turizm obyektləri inşa etmək üçün bu kəndin bələdiyyə fondundan torpaq alan 7 nəfərdən yalnız 3 nəfəri torpaq sahəsində müəyyən iş görməyə başlayıb.

Kənd sakini Adil Nuruşovun kəndin şimalında dağ yamacında "Ayı dərəsi" ərazisində aldığı 2 hektar torpaq sahəsində turizm obyektlərinin inşası üçün hazırlıq işləri başa çatmaq üzrədir. Onun verdiyi məlumata görə, inşaat işlərinə bu yaxınlarda başlanılacaqdır. Hələlik bu ərraziyə dağın yamacından yol çəkilişinə başlanılıb. Çox təqdirəlayiq haldır ki, bir kilometr uzunluğundakı bu yolun çəkilməsində ağır texnikadan və digər texniki vasitələrdən istifadə olunmur. Bu da təsadüfi deyil. Belə ki, dağ sürxarlarında eroziya, sürüşmə hüdisələri baş vero bilər. Odur ki, bütün işlər yalnız külüng və çəkiclə icra olunur.

Kənd sakini Ülkər Qurbanova bələdiyyədən aldığı 2 hektar torpaq sahəsində də turizm obyektlərinin inşasına başlayıb. Hələlik inşa edilən 8 ailəlik istirahət obyektində və onun yemək xanasında aparılan tikinti işləri tamamlanmaq üzrədir. Gələcəkdə obyektin genişləndirilməsi planlaşdırılıb.

Nizami Yunusovun kənddə uşaq istirahət mərkəzi təşkil etmək barədəki təşəbbüsü isə daha təqdirəlayiqdir. O, hələlik 25 nəfərlik rayondaxili və sonra isə 100 nəfərlik və daha çox yerlik rayonlararası uşaq istirahət mərkəzinin təşkili üçün müəyyən hazırlıq işləri görüb.

Bütün bunlarla tanışlıqdan sonra icra hakimiyyətinin başçısı kəndin abadlıq işləri ilə də yaxından tanış oldu. Sevindirici haldır ki, kənddə xüsusi layihə əsasında bələdiyyə və yerli iş adamlarının köməyi ilə mədəniyyət mərkəzinin yaradılması üçün müəyyən hazırlıq işləri gedir. Kəndin digər sosial problemləri ilə də tanışlıqdan sonra Telman Quliyev yerli iş adamları və kəndin rəhbərliyi ilə söhbət etdi. İş adamları öz planlarından danışaraq mövcud çətinliklərin aradan qaldırılması üçün təkliflərini söylədilər. O, irəli sürülən məsələlərin həlli üçün rayonun və kəndin əlaqədar qurumlarına müvafiq tapşırıqlar verdi.

Görüşdə həmçinin qərara alındı ki, kəndin ərazisində yeni iş yerləri açmaq üçün torpaq alan, lakin bu vaxtadək heç bir əməli iş görməyən iş adamları rayona dəvət edilərək kənd rəhbərliyi ilə birlikdə onlarla müvafiq söhbət aparılsın.

İcra hakimiyyətinin başçısı ilə söhbətimiz zamanı məlum oldu ki, belə tədbirlər rayonun digər kəndlərində də aparılacaq, yeni iş yerlərinin açılması üçün bütün imkanlardan səmərəli istifadə ediləcəkdir. Turizmin inkişafı istiqamətində rayonun Ilisu kəndində müəyyən işlər görülsə də, bu sahədə böyük imkanları olan Qum, Çinarlı, Ləkit, Ləkit—Malax kəndlərində hələ əsaslı bir işə rast gəlinmir. Həmin ərazilərdə də bu vacib sahənin inkişafı üçün müəyyən təşkilat-təbliğat xarakterli tədbirlər həyata keçirilməsi nəzərdə tutulur. Bundan ötrü müəyyən hazırlıq işləri görülməkdədir.

Bütün bunlar və rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qarşıda duran digər məsələlər barədə martın 29-da "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş şura iclasında geniş söhbət gedi. Qeyd edildi ki, müvafiq Dövlət Proqramında rayonumuzda nəzərdə tutulan tədbirlər həyata keçirilməkdədir. Belə ki, elektrik, qaz və içməli su təchizatındakı ciddi çatışmazlıqlar əsasən aradan qaldırılıb. Sahibkarlar tərəfindən son beş ildə rayonda 10 mineral suların qablaşdırılması, 2 çınqıl, 5 fındıq emalı sexi, 2 un dəyirmanı, 2 asfalt zavodu, 1 tikiş sexi, 1 tütünqurutma məntəqəsi, 100- dən çox ticarət və iaşə obyektləri, 5 şadlıq sarayı, 1 mehmanxana və digər obyektlər tikilib istifadəyə verilib. 2009-cu ildə Dövlət Proqramına uyğun olaraq Baydarlı kəndində 360, Almalı kəndində 480 şagird yerlik məktəb binaları, statistika, VVAQ şöbələrinin inzibati binaları, Qarabağ müharibəsi və şəhid ailələri üçün 2 mərtəbəli 16 mənzilli yaşayış binası, 3 hektar ərazidə yeni park istifadəyə verilib. Rayonun bir çox yaşayış məntəqələrinin sel-sulardan mühafizəsi üçün sahilbərkitmə bəndlərinin, Hamamçay üzərində körpünün, YAP rayon təşkilatının, Uşaq Yaradıcılıq Mərkəzinin və digər bir çox obyektlərin inşası davam edir. Kənd təsərrüfatının inkişafı üçün suvarma sistemləri idarəsi tərəfindən yeni kanallar çəkilib, mövcud kanallar betona alınıb, təmizlənib.

Müvafiq dövlət proqramında rayonda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin inşası nəzərdə tutulub. Bu məqsədlə rayonda bir günlük istehsal gücü 10 ton olan süd emalı müəssisəsinin inşasına başlanılıb. Rayonun "pavilyon" ərazisində meyvə tədarükü və emalı müəssisəsinin inşası üçün də hazırlıq işləri gedir. Rayondakı "Konserv" ATSC-də artıq istehsal prosesi bərpa olunmaqdadır. Son bir ildə zavodda 56 çeşidə 300 min şərti banka, əsasən yabanı meyvələrdən şirə, marinad, mürəbbə və sair məhsullar istehsal olunub.

Şura iclasında kənd təsərrüfatı məhsulları istehsalının və emalının artırılması sahəsində rayonda həyata keçirilən digər tədbirlərdən də söhbət getdi. Əsas diqqət isə əlbəttə ilk növbədə qarşıda duran vəzifələrə yönəldildi. Çıxış edənlər həyata keçiriləcək tikinti-abadlıq işləri, yeni açılacaq iş yerləri, istifadəyə veriləcək sosial, sənaye, emal və turizm obyektləri haqqında məlumat verdilər. Sahibkarlar çıxışlarında respublika Prezidenti cənab İlham Əliyevə sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Şura iclasında "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın birinci ilinin Qax rayonu üzrə yekunları və qarşıda duran vəzifələr geniş təhlil edildikdən sonra müvafiq sahədə həyata keçiriləcək tədbirlərin planı təsdiq olundu.

İlqar HƏSƏNOV,
"Xalq qəzeti"nin bölgə müxbiri

"Şəki - Azərbaycanın sənətkarlıq paytaxtı-2010" ilinin təntənəli açılışı olmuşdur

Xəbər verildiyi kimi, Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları" Proqramına əsasən, Şəki şəhəri cari ilə Azərbaycanın sənətkarlıq paytaxtı elan olunmuşdur. Proqram çərçivəsində 2010-cu ildə Şəki şəhərində xalq təbiqi sənəti, dekorativ sənət və milli təsviri sənət ənənələri ilə bağlı silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Aprelin 3-də şəhərin mərkəzində yerləşən parkda "Şəki - Azərbaycanın sənətkarlıq paytaxtı-2010" ilinin təntənəli açılış mərasimi keçirilmişdir. Tədbirdə şəhər rəhbərləri, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri və digər qonaqlar iştirak etmişlər. Tədbirin keçirildiyi meydan paytaxt ilinin rəmzləri ilə, o cümlədən loqotip, bayraq, lövhə və digər əyani vəsaitlərlə bayramsayağı bəzədilmiş, iştirakçılara hədiyyələr paylanmışdır.

Mərasimi giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı Nazim İbrahimov bildirmişdir ki, qədim xalq yaradıcılığı ənənələrinə, zəngin tarixə, yüksək mədəniyyətə malik olan Şəki şəhəri, eyni zamanda, sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olmuşdur. El sənətkarlarının misilsiz sənət nümunələrini davam etdirən yüzlərlə Şəki sənətkarının fədakar əməyi sayəsində bu qədim şəhərdə zəngin tarixi-mədəni irs yaranmışdır. Dəmirçilik, nalbəndlik, şəbəkə, duluşçuluq, papaqçılıq, ipəkçilik və onlarla istehsal sahəsi Şəki sənət mədəbdinin başlıca sütunlarını təşkil etmişdir.

Məlumat verilmişdir ki, proqramın həyata keçirilməsinin əsas məqsədi Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması və təbliğ olunması, xalq təbiqi sənətinin daha da inkişaf etdirilməsi, eyni zamanda, paytaxt şəhərlərin turizm potensialının genişləndirilməsi, beynəlxalq səviyyədə tanıdılması və davamlı sosial-iqtisadi inkişafına nail olmaqdır. Şübhə yoxdur ki, tarixən şəhərdə mövcud sənət sahələrinin qorunub saxlanmasına, itib-batan bir çox sənət sahələrinin bərpasına təsir göstərə biləcək paytaxt nominasiyası proqramı Şəkidə xalq təbiqi dekorativ sənətinin inkişaf etdirilməsinə yeni mərhələnin başlanğıcını qoyacaqdır.

Mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva demişdir ki, 2010-cu ildə Şəki şəhərinin Azərbaycanın sənətkarlıq paytaxtı elan edilməsi əlbəttə təsadüfi deyildir. Vətənimizin dilbər guşələrindən olan qədim Şəki torpağı marlıq abidələri ilə də məşhurdur. Şəki xanlarının sarayı, Şəkixanovların evi, Cümə məscidi, Dairəvi məbəd, Yuxarı və Aşağı karvansaralar, "Gələrsən-Görərsən qalası" və s. məşhur tarixi abidələrdir. Bu gün biz böyük qürurla qeyd edirik ki, milli mədəniyyətimizin incilər olan ulu muğamımız, aşıq sənətimiz, Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bütün bunlar, əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mədəni irsimizin qorunması və təbliğinə yönəldilmiş çoxsaxlı fəaliyyətlərinin, qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği işinə göstərdikləri xüsusi diqqət və qayğının məntiqi nəticəsidir.

Tədbirdə şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Aydın İbrahimxəlilov Şəkinin 2010-cu ildə Azərbaycanın sənətkarlıq paytaxtı elan edilməsindən iftixar hissi keçirdiklərini qeyd etmiş, göstərilən etimada görə şəhər ictimaiyyəti adından nazirliyin rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Daha sonra tədbir XIX əsrə aid tarix-memarlıq abidəsi "Yuxarı Karvansara" mehmanxana kompleksinin həyətində bədii proqramla davam etdirilmişdir. Tədbir iştirakçıları el sənətkarlarının əl işləri, hazırladıqları sənətkarlıq nümunələri ilə tanış olmuşlar. Bakıdan gəlmiş "İrs" folklor və F.Əmirov adına Dövlət mahnı və rəqs ansamblarının, habelə şəhər mədəniyyət və turizm şöbəsinin musiqi kollektivlərinin rəngarəng çıxışları iştirakçılarda xoş ovqat yaratmışdır.

"Meşə qardaşları" adlı terrorçu birləşmənin rəhbərlərindən biri olan Samir Mehdiyev Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat məlumatına əsasən Pakistanda tutularaq Azərbaycana təhvil verilmişdir

Xəbər verildiyi kimi, 2008-ci il avqustun 17-də Bakıda "Əbu-Bəkr" adı ilə tanınan "Cümə məscidi"ndə terroçuluq törədilməsinə təşkilçi-nidirlən şəxs qismində cəlb olunaraq barəsində axtarış elan edilmiş, Azərbaycanda istintaqdan yayınaraq digər dövlətin ərazisində gizlənmiş, "Meşə qardaşları" adlı silahlı birləşmənin rəhbərlərindən biri Samir Mehdiyev 2010-cu ilin yanvarında Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat məlumatı əsasında Pakistan İslam Respublikasının ərazisində saxlanılmış və martın 16-da Azərbaycana təhvil verilmişdir.

Milli Təhlükəsizlik Nazirliyi İctimai Əlaqələr Mərkəzinin 2009-cu il 16 fevral tarixli məlumatında bildirilmişdir ki, Samir Mehdiyev hazırda cinayət işi ilə bağlı Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsində baxılmaqda olan 31 nəfərdən ibarət "Sumqayıt camaatı" adlı silahlı birləşmənin üzvləri vasitəsilə onların rəhbəri, həmin vaxt Gürcüstan ərazisində olan Azər Misirxanovla əlaqə yaratmışdır. Sonra Samir Mehdiyev Azər Misirxanovun göstərişinə əsasən həmin silahlı birləşmənin üzvlərinin köməyi ilə qeyri-qanuni yolla xarici ölkəyə keçirilmişdir.

Samir Mehdiyevin istintaqa verdiyi ifadələrə onun gizli yolla xarici ölkənin ərazisinə keçirilməsi, eləcə də Pakistan ərazisində gizlənməsi ilə əlaqədar yeni xüsusatlar üzə çıxmışdır. Müəyyən edilmişdir ki, Samir Mehdiyev "Cümə məscidi"ndə terroçuluq törədilməsindən sonra "Dağıstan camaatı"nın "təmsilçisi" olan "Abdulsəmməd" ləqəbli şəxslə əlaqə yaratmış və sonuncunun tapşırığı ilə "Sumqayıt camaatı"nın üzvlərindən biri, hazırda barəsində məhkəmə baxışı keçirilən "İbrahim" ləqəbli Ceyhun Əliyevlə görüşmüşdür. O, Samir Mehdiyevin Azərbaycandan gizli çıxarılması məqsədilə Azər Misirxanovun özünə "nalib", yani müavin təyin etdiyi Rəşid Mustafayevlə əlaqə yaratmışdır. Rəşid Mustafayev də Gürcüstana gedərək Azər Misirxanovdan Samir Mehdiyevin Azərbaycandan gizli çıxarılması barədə təlimat almışdır. Silahlı birləşmənin üzvləri bu müddət ərzində Samir Mehdiyevi Sumqayıt şəhərində gözlətmişlər. Samir Mehdiyev həmin vaxt üzərində olan "Makarov" tipli bir tapançanı və ona aid 2 dolu darağı, eləcə də "RQD" tipli bir əl qumbarasını özündə saxlamış, "AKS-74U" tipli avtomat silahını və həmin odlu silaha aid patronlarla dolu 2 sandıqcanı isə silahlı birləşmənin üzvü, barəsində məhkəmə baxışı keçirilən Faiq Cəfərova vermişdir. Azər Misirxanovun göstərişinə əsasən Samir Mehdiyev Faiq Cəfərovun vasitəsilə sərnişin avtobusu ilə Tovuz rayonunun aparılmışdır. Qeyd olunan oldə edilmiş razılığa əsasən Faiq Cəfərov Tovuz şəhərinin kənarında Samir Mehdiyevi hazırda barəsində məhkəmə baxışı keçirilən Gürcüstan vətəndaşı İbadət Alazoviyə təhvil vermişdir. İbadət Alazovi Samir Mehdiyevi Ağstafa rayonundakı "Böyük-Kəsik" sərhəd-nəzarət məntəqəsinin "Candar" sadələşdirilmiş buraxılış məntəqəsinə gətirmiş və Gürcüstandan Azərbaycana mal-qara keçirib geri qayıdan Gürcüstan vətəndaşlarına qoşaraq sənədqiləri olmadığı üçün yayındırmış və Samir Mehdiyevin mühafizə olunan dövlət sərhədini müvafiq sənədlər olmadan qeyri-qanuni yollа Gürcüstan ərazisinə keçməsinə nail olmuşdur. Gürcüstanda Samir Mehdiyevi Azər Misirxanov və barəsində axtarış elan edilmiş "Subay" ləqəbli Elnur Cəfərov qarşılamış və onu həmin ölkənin Qaraçöp kəndinin sakini, qrupun digər üzvü Rasim Tanrıverdiyevin evində yerləşdirmiş və o, burada təxminən 5 ay yaşamışdır. Sonra Azər Misirxanovun vasitəsilə Samir Mehdiyev Gürcüstanın Batumi şəhərindən Türkiyəyə qeyri-qanuni olaraq insanların keçirilməsi ilə məşğul olan, hazırda şəxsiyyəti istintaqla araşdırılan bir nəfərlə tanış olmuş və sonuncunun pasportuna öz şəklini yapışdıraraq gizli yolla Türkiyə ərazisinə keçmişdir. Samir Mehdiyev Pakistandakı terroçu qruplaşmalardan birinə rəhbərlik edən "Abuzar" ləqəbli şəxsin və hazırda barəsində məhkəmə baxışı keçirilən "Şəkili Abdulla" ləqəbli Vüqar Abdullayevin köməyi ilə müxtəlif ünvanlarda yaşamışdır. Bundan sonra Samir Mehdiyev və Vüqar Abdullayev Pakistana getmək qərarını qəbul etmişlər. Qeyri-qanuni yolla İran ərazisinə keçərkən onlar həmin ölkənin sərhədçiləri tərəfindən saxlanılmış və Samir Mehdiyevin Gürcüstana, Vüqar Abdullayevin isə Azərbaycana deportasiyası barədə qərar qəbul edilmişdir. Lakin İrandan Gürcüstana birbaşa avareyslər olmadığı üçün o, Tehran-İstanbul-Tiflis reysi ilə ölkədən çıxarılmışdır. Samir Mehdiyev diqqətdən yayınaraq İstanbulun hava limanında təyyarədən enərək Gürcüstana qayıtmamışdır. Vüqar Abdullayev isə Azərbaycanda Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilmişdir.

Samir Mehdiyev Pakistan ərazisinə keçmək məqsədilə həmin vaxt İstanbula gələn Rasim Tanrıverdiyevin pasportuna öz şəklini yapışdıraraq saxtalaşdırmışdır. Sonra Samir Mehdiyev Azər Misirxanova əlaqə yaratmış və sonuncu tərəfindən gizli yollarla Pakistana getmək marşrutu barədə təlimatlandırılmışdır. Samir Mehdiyev həmin saxta pasportla qanunsuz olaraq İrana, oradan isə Pakistan ərazisinə keçmişdir.

Beləliklə müəyyən edilmişdir ki, niyyətləri ölkədə terroçuluq aksiyaları keçirmək olan radikal dini təmayüllü, Azər Misirxanovun rəhbərlik etdiyi "Sumqayıt camaatı" adlı silahlı birləşmənin, eləcə də bu günlərdə Aqil Namazovun rəhbərlik etdiyi, İfşa olunaraq yaxalanmış müteşəkkil dəstənin üzvləri külli miqdarda silah-sursatı və partlayıcı maddələri qaçaq yolla Gürcüstandan Azərbaycan Respublikasının ərazisinə gətirmişlər.

Milli Təhlükəsizlik Nazirliyinin İctimai Əlaqələr Mərkəzində bildirmişlər ki, Azərbaycan Respublikası ərazisindən qanunsuz silah dövriyyəsi məqsədilə istifadə ediləsi, ölkədə hüquqazidd əməllərin, o cümlədən sifarişli cinayətlərin tərədilməsi planlarının, təhlükəsizliyə təhdidlər yaradan müxtəlif cinayətkar birləşmələrin və ünsürlərin mümkün niyyət və əlaqələrinin tam aşkarlanması və ifşası üçün zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Qeyd edək ki, 2005-ci ilin mart ayında jurnalist Elmar Hüseynovun qətlinin tərədilməsində iştirakları sübuta yetirilmiş, təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində İnterpol xətti ilə beynəlxalq axtarış elan edilmiş Gürcüstan vətəndaşları Tahir Xubanov və Teymuraz Əliyevin tutularaq ekstradisiya olunması barədə Azərbaycan tərəfinin Gürcüstan Baş Prokurorluğuna göndərdiyi və indiyədək həllini tapmadığı 6 vəsatətin də həmin olunması üçün müvafiq işlər görülür.

AzərTAc

Apelyasiya komissiyası şuraya daxil olmuş müraciətləri araşdırmışdır

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının apelyasiya komissiyası 2010-cu il birinci mal yyə yardımı müsabiqəsinin nəticələri ilə bağlı Şuraya daxil olmuş müraciətlərə baxmışdır.

Bildirilmişdir ki, müsabiqənin nəticələri ilə bağlı apelyasiya komissiyasına 11 ərizə daxil olmuşdur. Həmin ərizələrin doqquzu Şuraya bilavasitə təqdim edilmiş, iki isə poçt vasitəsilə göndərilmişdir.

Müraciət etmiş təşkilatların rəhbərləri apelyasiya komissiyasının iclasına şəxsən dəvət olunmuş, iclasda onlardan 7-sinin nümayəndəsi iştirak etmişdir.

Komissiya müraciətləri QHT nümayəndələrinin iştirakı ilə fərdi qaydada müzakirə etmişdir. Müzakirələrdə layihənin hazırlanmasında yol vermiş nöqsanlar təhlil edilərək, təşkilat rəhbərlərinin diqqətinə çatdırılmışdır. Qeyd olunmuşdur ki, layihələrin bəzilərində qaldırılmış problemlər müəyyən aktuallıq kəsb etsə də, layihə rəhbərləri onları tələb olunan səviyyədə təqdim edə bilməmişlər.

Yalnız Azərbaycan - Amerika Gənclər İctimai Birliyinin təqdim etdiyi layihədə planlaşdırılmış tədbirlərin əhəmiyyəti nəzərə alınaraq, qeyd edilmişdir ki, təşkilat layihənin icrasına əlavə maliyyə resursları cəlb edə biləcəyi halda müvafiq dəyişikliklər etmək şərtilə bu layihəni Şuranın növbəti maliyyə yardımı müsabiqələrinə təqdim edə bilər.

Komissiyanın iclasında iştirak etməyən təşkilatlara komissiyanın reyi rəsmi şəkildə təqdim olunacaqdır.

AzərTAc

Azərbaycanda həyata keçirilən layihələr məndə xoş təəssürat yaratmışdır

Azərbaycanda həyata keçirilən layihələr məndə xoş təəssürat yaratmışdır.

Bu sözləri Azərbaycan Dillər Universitetinin (ADU) İnformasiya Resurs Kompleksində Mərkəzi Avropa Universitetinin (CEU) macarıstanlı professoru Qriqori Böqel dünyada baş verən iqtisadi proseslər haqqında mühazirəsində demişdir.

Universitetdən bildirmişlər ki, professor Q.Böqelin toxunduğu müxtəlif mövzular arasında ötən il dünyada baş verən iqtisadi böhranın nəhəng korporasiyaların təsiri mövzusu da var idi.

Mühazirəçi müasir dünya iqtisadiyyatında internetin əhəmiyyətindən də söz açmışdır. Bildirmişdir ki, internet müəssisələrin nəqliyyat və əmək xərclərini azaldır. Q.Böqel böyük korporasiya və müəssisələrin əmək xərclərini azaltmaq üçün digər ölkələrdə zavod və fabriklərin qurulmasının mənfi və müsbət cəhətlərindən söz açaraq demişdir ki, əmək xərclərinə qənaət etmək üçün digər ölkələrdə zavod və fabrik açan şirkətlər öz ölkələrindən iş yerlərini alır və digər ölkələrə müəyyəssisələr boxş edir.

Professor Q.Böqel Azərbaycan haqqında geniş məlumata malik olduğunu da vurğulamışdır. O demişdir ki, Azərbaycanın sürətlə inkişaf etməsi bütün dünyaya məlumdur.

AzərTAc